**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜNAQİŞƏLƏRİN NİZAMLANMASINDA BEYNƏLXALQ TƏŞKİLATLARIN ROLU

İxtisas: 5909.01 – Dövlət idarəçiliyi

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Aynur Arif qızı Əlişanova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və siyasi idarəetmə" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor<br>**Musa Cəfər oğlu Qasımlı** |
| Rəsmi opponentlər: | Siyasi elmlər doktoru, proffesor<br>**Ziyafət Ziya qızı Həbibova** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Afət Ağabala qızı Güləliyeva** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Həmdulla Firudin oğlu Məmmədov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | Akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi: | Siyasi elmlər doktoru, dosent<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi seminarın sədri: | Siyasi elmlər doktoru, professor<br>**Aqiyə Həbib qızı Naxçıvanlı** |

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrdə baş vermiş iki dünya müharibəsi sülhün qorunması və münaqişələrin nizamlanması üçün beynəlxalq təşkilatların rolunu ön plana çıxardı. XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin süqutu nəticəsində ikiqütblü dünya sistemi dağıldı. Beynəlxalq münasibətlər sistemində iştirakçıların sayının artması həm də yeni problemlər, qarşıdurmalar, dövlətlərarası və beynəlxalq münaqişələr demək idi. Dünyanın ayrı-ayrı yerlərində ölkələrin daxili siyasi problemləri kimi meydana çıxan bir çox münaqişələr tədricən beynəlxalq xarakter aldı. Bu və digər amillər dünyadakı böhran və münaqişələrin həllində beynəlxalq təşkilatların rolu və yeri barədə müzakirələri yenidən canlandırdı.

Müasir mərhələdə həm praktik siyasətdə, həm də siyasətşünaslıq elmində beynəlxalq təşkilatların münaqişələrin tənzimlənməsində iştirakına bir neçə yanaşma mövcuddur. Dövlətlərarası və dövlətlərüstü təşkilatların beynəlxalq siyasətdə müstəqil oyunçu kimi çıxış edib-etməməsi, dövlətlərin öz suverenliklərinin bir hissəsini beynəlxalq qurumlara ötürməsinin müasir siyasi gerçəkliklərə uyğun olub-olmaması, münaqişələrin tənzimlənməsində beynəlxalq təşkilatların mövcud mexanizm və vasitələrinin səmərəlilik dərəcəsi aktuallıq kəsb edən başlıca suallardır.

Tədqiq olunan mövzunun aktuallığını ilk növbədə beynəlxalq münasibətlərdə son 30 il ərzində baş verən dəyişikliklər şərtləndirir. Çünki ikiqütblü dünya sisteminin dağılmasından sonra proqnozlaşdırılan təkqütblü dünya sistemi ideyası gerçəkləşməmişdir. Çoxqütblü dünya sisteminin formalaşması istiqamətində isə proseslər kifayət qədər ləng inkişaf edir. Belə olan halda beynəlxalq təşkilatlar bütün çatışmazlıqlarına baxmayaraq münaqişələrin nizamlanması prosesində əsas institut olaraq qalırlar.

Beynəlxalq təşkilatların münaqişələrin tənzimlənməsində qətiyyət nümayiş etdirə bilməməsi, ikili standartlardan çıxış etməsinin səbəblərinin öyrənilməsi də mövzunun aktuallığını müəyyənləşdirən amillərdəndir. Məlum olduğu kimi dünyada sülhün qorunmasına, beynəlxalq və regional münaqişələrin qarşısının alınmasına və nizamlanmasına cavabdeh olan təşkilatların əksəriyyəti İkinci Dünya

müharibəsindən sonrakı dövrdə, soyuq müharibə illərində yaradılmışdı. XX əsrin sonu – XXI əsrin əvvəllərində dünyada baş verən qlobal dəyişikliklər, meydana çıxan problemlər bu təşkilatların yeni şəraitə uyğunlaşıb təhlükəsizliyin yeni çağırışlarına cavab verə bilib-bilməyəcəyinə dair sualları meydana çıxardı.

Mövzunun aktuallığını şərtləndirən digər amillərdən biri 1991-ci ildə dövlət müstəqilliyinin bərpasını elan edən Azərbaycan Respublikasının qarşılaşdığı münaqişənin tənzimlənməsində beynəlxalq təşkilatların roluna yanaşmasında baş verən dəyişikliklərdir. Məlumdur ki, Ermənistanın Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərini işğal etməsi nəticəsində meydana çıxmış münaqişənin nizamlanması prosesində beynəlxalq təşkilatlara böyük ümidlər bəslənilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu barədə demişdir: “*Biz bütün məsələləri beynəlxalq təşkilatların – Birləşmiş Millətlər Təşkilatının, BMT Təhlükəsizlik Şurasının, ATƏM-in, bu problemin həlli üçün ATƏM-in tərkibində xüsusi olaraq yaradılmış Minsk qrupunun köməyi ilə həll etməyə çalışırıq. Məlumdur ki, BMT-nin Təhlükəsizlik Şurası bu məsələyə dəfələrlə baxmış və Azərbaycanın işğal olunmuş rayonlarından erməni silahlı birləşmələrinin qeyd-şərtsiz çıxarılması haqqında dörd qətnamə qəbul etmişdir. Lakin erməni tərəfi bu qətnamələrə tam etinasızlıq göstərir”.*[1]

Münaqişə tərəfləri arasında 1994-cü ildə Bişkek protokolunun imzalanmasından ötən 25 ildən artıq müddət ərzində beynəlxalq təşkilatların Ermənistanın əsassız ərazi iddiaları ilə hərbi təcavüzə başladığı Azərbaycan ərazilərinin 20 faizini işğalı ilə nəticələnən münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üçün göstərdiyi səylərin nəticəsizliyi və ya təsirli tədbirlər həyata keçirməməsi bu ümidləri tükəndirmişdir. Əslində bu təkcə münaqişənin deyil, dünyanın digər yerlərindəki münaqişələrin tənzimlənməsində beynəlxalq təşkilatların rolunun azalmasının başlıca səbəbini ortaya çıxarmağa imkan vermişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu səbəbi nitqlərindən birində aşağıdakı kimi ifadə etmişdir: *“Təəssüflər olsun ki, beynəlxalq*

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. –Bakı: Azərnəşr, – c. 1. –1997. -s. 462.

*hüququn normaları və beynəlxalq təşkilatların qərarları ilə bağlı ikili standartlar və selektiv yanaşmanın tətbiqi dünyada münaqişələrin ədalətli həllinə mənfi təsir göstərir. Azərbaycan da son 30 il ərzində belə selektiv yanaşmaya məruz qalıb".*[2]

Deməli, mövzunun aktuallığını şərtləndirən amillərdən biri də Ermənistan-Azərbaycan münaqişəsinin həllində qlobal və regional beynəlxalq təşkilatlara yanaşmanın Azərbaycan Respublikasının xarici siyasətində hansı mərhələlərdən keçdiyinə, necə dəyişdiyinə dair kompleks tədqiqatın mövcud olmamasıdır. Aparılan tədqiqat işi bu sahədə olan boşluğu doldurduğundan əhəmiyyətlidir.

2020-ci ildə baş verən 44 günlük müharibəyə qədərki və müharibədə Azərbaycan dövlətinin qazandığı qələbədən sonrakı dövrdə sülh quruculuğu prosesində beynəlxalq təşkilatların rolunun necə dəyişməsinin öyrənilməsi dünyanın digər ərazilərindəki bəzi münaqişələrin həlli üçün də təcrübi-modelləşdirmənin aparılmasına imkan verir. Bu isə mövzunun tədqiqinin təkcə Azərbaycan Respublikasının praktiki-siyasi mənafeləri baxımından deyil, həm də siyasətşünaslıq nəzəriyyəsi baxımından aktuallıq kəsb etdiyini göstərir.

Mövzunun ayrı-ayrı istiqamətləri ilə bağlı həm Azərbaycanda, həm də xarici ölkələrdə çoxsaylı tədqiqatlar aparılmışdır. Azərbaycan tədqiqatçılarından M.Qasımlı, G.Paşayeva, E.Nəsirov, H.Məmmədov, H.Hüseynova, E.Əhmədov, Q.Paşayeva, E.Mirbəşiroğlu, N.Əliyev, N.Dünyamalıyeva, A.Güləliyeva, B.Muradova, D.Rəcəbli, S.Seyidməmmədova, R.Dadaşova, Türkiyədən olan tədqiqatçılardan F.Keskin, A.Bağbaşlıoğlu, M.Ataman, M.Öztürk, N.Ergül, N.Akyeşilmen, H.Bağcı, H.Gökarslan, F.Çapan, D.Özlük, K.Diyarbakırlıoğlu, M.Çağıran və başqa müəlliflərin əsərləri maraq doğurur. Rusiya siyasətşünaslıq elmində də mövzuya dair çoxsaylı tədqiqat əsərləri yazılmışdır. K.Qadjiyev, Q.Nodiya, A.Aklayev, V.Andreyev, A.Qluxova, M.Lebedeva, D.Novikova və digər müəlliflərin əsərlərində problemin müxtəlif aspektləri əksini

---

[2] İlham Əliyev Qoşulmama Hərəkatının Yüksək Səviyyəli Toplantısında videoformatda çıxış edib: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, –Oktyabr 11, 2021. URL: https://president.az/az/articles/view/53406

tapmışdır. Digər ölkələrdən olan müəlliflərin (F.Fukuyama, S.Hantinqton, Z.Bjezinski, L.Blumfayld, A.Multon, Ə.Batur, E.Dovqa və b.) əsərlərinin öyrənilməsi tədqiq olunan mövzuya çoxtərəfli kontekstdə baxmağa imkan vermişdir.

M.Qasımlının əsərlərində Azərbaycan Respublikasının xarici siyasətinin uzun illər ərzində başlıca məsələsi olmuş Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların mövqeyi, həmin təşkilatların arxivlərindən əldə olunmuş mötəbər sənədlər və mənbələr əsasında araşdırılmışdır.[3]

G.Paşayevanın əsərləri Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində yaradılmış münaqişənin müxtəlif mərhələlərində beynəlxalq təşkilatların fəaliyyəti, eləcə də 2020-ci ildə baş vermiş 44 günlük müharibədən sonrakı iki ölkə arasında münasibətlərin tənzimlənməsi prosesinin öyrənilməsi baxımından maraq doğurur.[4]

E.Nəsirov elmlər doktorluğu dissertasiyasında terrorizmə qarşı mübarizə, dövlətlər arasında böhran şəraitinə gətirib çıxaran bəzi problemlər, bu proseslərin tənzimlənməsində beynəlxalq təşkilatların mövqeyi ilə bağlı bəzi məsələlərə toxunmuşdur.[5]

H.Məmmədovun (Babaoğlunun) tədqiqatlarında beynəlxalq münasibətlər sistemində beynəlxalq təşkilatların yerinə, onların

---

[3] Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti: 1991-2003: [2 cilddə] / M.C.Qasımlı. -Bakı: Mütərcim, -c. I. -2015. – 648 s.; Azərbaycan Respublikasının xarici siyasəti: 1991-2003: [2 cilddə] / M.C.Qasımlı. -Bakı: Mütərcim, -c. 2. -2015. – 664 s.; Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri) /M.C.Qasımlı. -Bakı: Mütərcim, -1997. - 124 s.; Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). -Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, -2016. –520 s.

[4] Pashayeva, G. Opinion: A watershed moment in Armenian-Azerbaijani relations: [Digital resource] / Karabakhsace, -2022, July 5. URL: https://karabakhspace.commonspace.eu/commentary/opinion-watershed-moment-armenian-azerbaijani-relations.; Towards Armenian-Azerbaijani rapprochement: Initial steps: [Digital resource] / Turkish Policy Quarterly, -2022, April 14. URL: http://turkishpolicy.com/blog/84/towards-armenian-azerbaijani-rapprochement-initial-steps; Spotlight on normalization // -Baku: Baku dialogues, -2021. №4. –pp. 54-73.

[5] Nəsirov, E.X. ABŞ və Beynəlxalq terrorizm problemi: / siyasi elmlər doktor dis. – Bakı, 2000. -166 s.

dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında, münaqişələrin qarşısının alınmasında yeri və rolu ilə bağlı məsələlərə diqqət yetirilmişdir.[6]

H.Hüseynova əsərlərində Azərbaycan Respublikasının Avropaya inteqrasiyası proseslərində beynəlxalq təşkilatların, o cümlədən ATƏT, NATO, Avropa İttifaqı və Avropa Şurasının rolunu tədqiq etmiş, bu təşkilatların Azərbaycanın qarşılaşdığı problemlər, o cümlədən Ermənistanın işğalçı siyasəti nəticəsində yaranmış münaqişəyə münasibətinə dair bir sıra məsələlərə də toxunmuşdur.[7]

E.Əhmədovun əsərlərində XX əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddiaları və təcavüzkarlıq siyasəti təhlil edilmiş, münaqişənin həll edilməsinə dair beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş sənədlər xronoloji ardıcıllıqla və sistemli şəkildə təqdim edilmişdir.[8]

Q.Paşayevanın monoqrafiyasında XX əsrin sonlarında Avropada və Cənubi Qafqazda regional münaqişələr və onların nizamlanması ətrafında diplomatik-siyasi mübarizə məsələləri[9], E.Mirbəşiroğlunun monoqrafiyasında siyasi münaqişələri həlli prosesində beynəlxalq təşkilatların mediator funksiyası və onların effektivliyi məsələlərinə toxunulmuşdur.[10]

---

[6] Məmmədov, H.B. Dünya siyasəti və beynəlxalq münasibətlər / H.B.Məmmədov. - Bakı: Bakı Universiteti, -2012. -372 s.

[7] Hüseynova, H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində: / Siyasi elmlər doktoru dis. –Bakı, 2001, -s. 102-170.

[8] Əhmədov E.İ. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər / E.İ.Əhmədov. - Bakı: Letterpress, -2013. - 452 s.; Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar [3 cilddə] / E.İ.Əhmədov. -Bakı: Letterpress, c. 1. -2015. 324 s.; Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar [3 cilddə] / E.İ.Əhmədov. - Bakı : Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, -c. 3 Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti. -2015. - 368 s.; Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar / E.İ.Əhmədov. -Bakı: Tuna, -1998, - 138 s.; Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika: 1987-2011 /E.İ.Əhmədov. -Bakı: Letterpress, -2012. -912 s.

[9] Paşayeva, Q.Ə. Müasir dövrdə Avropada və Cənubi Qafqazda regional münaqişələr və onların nizamlanması ətrafında diplomatik-siyasi mübarizə /Q.Ə.Paşayeva. –Bakı: Elm və təhsil, -2013. -392 s.

[10] Mirbəşiroğlu, E.M. Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli / E.M.Mirbəşiroğlu. –Bakı: Elm, -2009. -523 s.

N.Əliyev tədqiqatlarında beynəlxalq hüquqi sənədlərə əsaslanaraq Dağlıq Qarabağ münaqişəsinin etnik və ya milli zəmində meydana çıxan münaqişədən daha çox, işğal nəticəsində meydana çıxan münaqişə kimi xarakterizə olunmasının vacibliyini izah etmişdir.[11]

N.Dünyamalıyevanın dissertasiya işi "Müasir beynəlxalq münasibətlərdə hərbi-siyasi münaqişələr" probleminə həsr edilmişdir.[12]

A.Güləliyeva Azərbaycan Respublikasının ATƏT-də iştirakı problemini tədqiq etmiş, soyuq müharibənin başa çatmasından sonrakı dövrdə ATƏT mexanizminin təkmilləşdirilməsi fəaliyyətini araşdırmışdır.[13]

Münaqişənin nizama salınmasında ATƏT-in rolu B.Muradovanın dissertasiya işində tədqiq edilmişdir. Müəllif daha çox ATƏT-in Minsk qrupunun Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesində iştirakı tədqiq etmiş, təşkilatın digər münaqişələrin tənzimlənməsinə dair fəaliyyətinə diqqət yetirilməmişdir.[14]

S.Seyidməmmədova 1991-2005-ci illərin xronoloji çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında BMT, NATO, ATƏT, AŞ, Aİ, MDB, İƏT (İKT),

---

[11] Алиев, Н. На пути к разрешению конфликтов на Южном Кавказе (вместе предисловия) //Южный Кавказ: истоки сепаратизма, разрешение конфликтов, долговременный мир. Материалы международной научно практической конференции, посвященной 90 –летию Дипломатической службы Азербайджана (Тбилисский Государственный Университет им. Иване Джавахишвили, 20 ноября 2009 года). –Тбилиси: Универсал, -2009. -114 с.; Вопросы международного права в Нагорно-Карабахском конфликте / Н.Г.Алиев. –Тбилиси: Универсал, -2009. -98 с.;
Aliyev, N.H. İnternational law issues in Nagorno-Karabakh conflict / N.H.Aliyev. –Tbilisi: Universal, -2009.-100 p.

[12] Dünyamalıyeva, N.Z. Müasir beynəlxalq münasibətlərdə hərbi-siyasi münaqişələr: / siyasi elmlər namizədi dis. / -Bakı, 2006. -s. 99-138

[13] Güləliyeva, A.A. Azərbaycan Respublikasının Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında iştirakı: / siyasi elmlər namizədi dis. / -Bakı, 2007. -s. 33-43, 77-98.

[14] Muradova, B. Ə. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ATƏT-in rolu: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. / -Bakı, 2009. -173 s.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin iştirakını təhlil etmişdir.[15]

R.Dadaşova həm doktorluq dissertasiyası işində, həm də 2020-ci ildə nəşr olunmuş eyni adlı monoqrafiyasında dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında BMT-nin rolu, münaqişələrin nizamlanmasında təsir imkanlarını təhlil edilmiş, təşkilatın fəaliyyətinin artırılması üçün irəli sürülən islahat təkliflərinə diqqət yetirmiş, onların səmərəliliyinin qiymətləndirilməsinə cəhd göstərmişdir.[16]

Türkiyədən olan tədqiqatçı F.Keskin beynəlxalq hüquqda və münaqişələrin nizamlanmasında gücdən istifadə, BMT-nin bu çərçivədə səlahiyyətlərini tədqiq etmişdir.[17] Arif Bağbaşlıoğlunun redaktorluğu ilə nəşr edilmiş əsərdə beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklərin təşkilatların fəaliyyətlərinə təsirləri, BMT-nin insan təhlükəsizliyi anlayışı və onu qoruma məsuliyyəti çərçivəsində atdığı addımlar, NATO-nun mövcudluğunu mühafizə etməkdən ötrü təkmilləşdirilməsi, Avropa İttifaqının ümumi təhlükəsizlik və müdafiə siyasəti kontekstində fəaliyyəti kimi məsələlər öyrənilmişdir.[18]

M.Ataman və M.Öztürk beynəlxalq təşkilatların ölkələrin daxilində baş verən münaqişələrə müdaxilə edib-etməməsini müəyyənləşdirən amillərə, bu cür müdaxilələrin uğursuz olmasının səbəblərinin tədqiqinə həsr olunmuş bir sıra məqalələr yazmışlar.[19]

---

[15] Seyidova, S.M. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı:/ tarix elmləri doktoru dis. / -Bakı, 2016. -s. 140-281.

[16] Dadaşova, R.B. Regional münaqişələrin həlli kontekstində BMT-də islahatların zəruriliyi: / siyasi elmlər doktoru dis. avtoreferatı / -Bakı, 2018. –s. 20-36.

Dadashova, R. The problem of resolution of the regional conflicts: reforms in the UN / R.Dadashova. –İstanbul: Turk Yayinevi, -2020. -168 p.

[17] Keskin, F. Uluslararası Hukukta Kuvvet Kullanma: Savaş, Karışma ve Birleşmiş Milletler /F.Keskin. -Ankara, Mülkiyeliler Birliği Vakfı Yayınları, -1998, -239 s.

[18] Uluslararası Güvenlik ve Uluslararası Örgütler: Kavramlar, Yaklaşımlar ve Kurumlar / Ed. A.Bağbaşlıoğlu. –Ankara: Nobel Yayınları, -2022. -466 s.

[19] Ataman, M., Öztürk, M. Uluslararası Örgütlerin Devlet-İçi Çatışmalara Müdahale Edip Etmemesini Belirleyen Faktörler // Bilgi, -2016. № 3 3, -ss. 103 - 135; Uluslararası Örgütlerin Devlet-İçi Çatışmalara Başarısız Müdahalelerinin Nedenleri // Akademik İncelemeler Dergisi, Cilt/Volume: 12, Sayı/Issue: 2, Yıl/Year: 2017, ss. 137-168.

N.Ergülün məqaləsi də münaqişələrin nizamlanmasında beynəlxalq təşkilatların roluna həsr olunmuşdur.[20] N.Akyeşilmenin redaktorluğu ilə çap edilən kitabda H.Bağcı, H.Gökarslan, F.Çapan, D.Özlük və başqalarının münaqişələr, onların tənzimlənməsində beynəlxalq təşkilatların roluna dair məqalələri yer almışdır.[21] K.Diyarbakırlıoğlu[22] və M.E.Çağıran[23] öz əsərlərində dəyişən dünyada beynəlxalq təşkilatların roluna diqqət yetirmişlər.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində yaradılmış münaqişə xarici ölkələrin, o cümlədən Rusiyanın tədqiqatçıları tərəfindən fərqli səviyyələrdə və müxtəlif mövqelərdən tədqiqat obyekti olmuşdur. Əvvəlcədən belə bir məsələni qeyd etmək lazımdır ki, araşdırılan problemə dair Rusiyada yazılmış əsərlərin əksəriyyətində ziddiyətli məsələlərə rast gəlinir. Bu özünü xüsusən Rusiyanın mövcudluğunda maraqlı olduğu münaqişələrin tənzimlənməsi ilə bağlı məsələlərə münasibətdə göstərir. Məsələn, K.Hacıyev, Q.Nodiya kimi müəlliflər Cənubi Qafqazdakı münaqişələri araşdırarkən məsələlərə obyektiv yanaşmamış, tədqiqatlarında qərəzli fikirlərə geniş yer vermişlər.[24] A.Aklayev etnosiyasi münaqişələrin təhlili və idarə edilməsi[25], A.Qluxova münaqişələrin tipologiyası və inkişaf dinamikası[26], M.Lebedyeva

---

[20] Ergül, N. Yeni güvenlik anlayişi kapsaminda Birleşmiş Milletler'in rolü ve uygulamalari // Teoriler işiğinda güvenlik, savaş, bariş ve çatişma çözümleri / Ed. Atilla Sandıklı. –İstanbul: Bilgesam, -2012., -ss. 165-210.

[21] Barışı konuşmak: teori və praktikte çatışma yönetimi / Ed. N.Akyeşilmen. –İstanbul: ODTÜ yayınları, -2013. -470 s.

[22] Diyarbakırlıoğlu, K. International Organizations in the Changing World / K.Diyarbakırlıoğlu. –Ankara: Dora yayıncılık, -2021. -220 s.

[23] Çağıran, M.E. Uluslararası Örgütler / M.Çağıran. –Ankara: Turhan, -2019. -459 s.

[24] Гаджиев, К.С. Кавказский узел в геополитических приоритетах России / К.С.Гаджиев. -Москва: Логос, -2010. - 532 с.

Нодия, Г. Политическая смута и этнотерриториальные конфликты в Грузии // Спорные границы на Кавказе / под ред. Б. Коппитерса. -М.: Весь мир, -1996. - 228 с.

[25] Аклаев А.Р. Этнополитическая конфликтология: анализ и менеджмент: Учебное пособие / Аклаев А.Р. -М.: Дело, -2005. - 472 с.

[26] Глухова, А.В. Политические конфликты: основания, типология, динамика (теоретико-методологический анализ) / А.В. Глухова. -М.: Эдиториал УРСС, -2000. - 280 с.

münaqişələrin siyasi tənzimlənməsinə yanaşmaların[27] siyasi-nəzəri və praktiki tərəflərini tədqiq etmişlər. D.Novikova beynəlxalq böhranların və münaqişələrin nizamlanmasının yeni institutu kimi Avropa İttifaqının təcrübəsinə diqqət yetirmişdir.[28]

F.Fukuyama münaqişələrin tənzimlənməsi məsələsinə daha çox cəmiyyətlərin universal xarakterə malik olan Qərbin liberal demokratik dəyərlərinin yayılması nəticəsində mümkünlüyü ideyasını müdafiə etmişdir.[29] S.Hantinqton isə münaqişələrin yeni fazaya qədəm qoyması, mədəni sistemlər (sivilizasiyalar) arasındakı münaqişənin yeni sistemin formalaşmasına səbəb olacağı ideyasını irəli sürmüş, ayrı-ayrı sivilizasiyalara aid olan dövlətlərin beynəlxalq təşkilatlardan və institutlardan öz məqsədlərini reallaşdırılmaq naminə istifadə etməsi qənaətinə gəlmişdir.[30] Z.Bjezinskinin əsərlərində münaqişələrin yaranması ilə milli məhrumiyyət hissi arasında əlaqə məsələlərinə diqqət yetirilmiş, eləcə də Avrasiyada mövcud olan bir çox münaqişələrin geosiyasi səbəblərinə toxunulmuşdur.[31] L.Blumfayld və A.Multonun həmmüəllifi olduqları əsərdə münaqişələrin nizamlanması, onların qarşısının alınması istiqamətində atılan siyasi addımların siyasi-nəzəri şərhi verilmişdir.[32] Ə.Muhammed Batur XXI əsrdə əfqan münaqişəsinin nizamlanması haqqında yazdığı tədqiqat işinin ilk fəslində beynəlxalq təşkilatların dünya siyasi proseslərində və beynəlxalq münaqişələrin həllində funksiyaları və iştirak formalarına diqqət yetirmişdir.[33] E.Dovqan isə

---

[27] Лебедева, М.М. Политическое урегулирование конфликтов: Подходы, решения, технологии / М.М. Лебедева. - М.: Аспект Пресс, -1997. -272 s.

[28] Новикова, Д.О. Новые инструменты международного кризисного урегулирования: опыт Европейского союза / Д.О. Новикова. -М.: МГИМО Университет, -2009. -112 с.

[29] Фукуяма, Ф. Конец истории? // Вопросы философии. -1990. -№ 3.-с. 134–148.

[30] Хантингтон, С. Столкновение цивилизаций? // Полис. -1994. -№ 1. -с. 33.-48.

[31] Бжезинский, З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы / З.Бжезинский. - М.: Междунар. отношения, 1999. - 256 с.

[32] Bloomfield, L., Moulton, A. Managing International Conflicts: From Theory To Policy / L.Bloomfield, A.Moulton. - New York: St. Martin's Press, -1997. - 229 p.

[33] Батур, А.А.Роль международных организаций в урегулировании афганского конфликта в XXI веке: Диссертация на соискание ученой

Ukrayna münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların rolunu təhlil etmişdir.[34]

Tədqiqatın mənbə bazasını beynəlxalq təşkilatların sənədləri – nizamnamələr, konvensiyalar, qətnamələr, sazişlər, BMT bəyannamələri, münaqişədə iştirak edən dövlətlərin siyasi liderlərinin rəsmi çıxışları və statistik məlumatların əksini tapdığı rəsmi mənbələr təşkil edir. Mənbə bazasının xüsusi qrupunu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin nitq, çıxış və müsahibələrinin toplanıldığı "Müstəqilliyimiz əbədidir", Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitq, çıxış və müsahibələrinin toplanıldığı "İnkişaf məqsədimizdir" çoxcildlik kitablarının müxtəlif cildləri təşkil edir.[35] Bu əsərlərdə beynəlxalq münaqişələrin tənzimlənməsi prosesində beynəlxalq təşkilatların mövqeyi, ikili standartların mövcudluğunun səbəbləri açılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti münaqişələrin nizamlanmasında və sülhməramlı fəaliyyətlərin həyata keçirilməsində beynəlxalq təşkilatların roludur. Tədqiqatın predmetini münaqişələrin meydana çıxması prosesi, beynəlxalq təşkilatların iştirakçılığı ilə onların qarşısının alınması, tənzimlənməsi və həlli üçün həyata keçirilən fəaliyyətlər, bu istiqamətdə əldə olunmuş dünya təcrübəsi, presedentlər, problemlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Problemin tədqiqində başlıca məqsəd münaqişələrin tənzimlənməsində beynəlxalq təşkilatların rolu və yerini müəyyənləşdirmək, eləcə də Ermənistan-Azərbaycan münaqişəsinin nümunəsi əsasında beynəlxalq təhlükəsizlik institutlarının münaqişə zonasında apardığı fəaliyyətinin xüsusiyyətlərini, təsirlilik dərəcəsini aşkara çıxarmaqdır.

Qarşıya qoyulmuş məqsədlərə nail olmaqdan ötrü bir sıra konkret vəzifələr müəyyənləşdirilmişdir:

---

степени кандидата политических наук / - Санкт-Петербург, 2017. -358 p.

[34] Довгань, Е. Ф. Роль международных организаций в урегулировании конфликта в Украине // Труды факультета международных отношений : науч. сборник. - Вып. 5. - Минск, 2014. –с. 97-104.

[35] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 1. – 1997. –612 s.

Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [117 cild] / İ.H.Əliyev. –Bakı: Azərnəşr, -2019-2021. –c. 96-117.

- müasir mərhələdə dünyadakı siyasi münaqişələrin özünəməxsus xüsusiyyətlərini araşdırmaq;
- münaqişələrin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakının tarixi və hüquqi-siyasi əsaslarını müəyyənləşdirmək;
- beynəlxalq sülh proseslərində beynəlxalq təşkilatların fəaliyyətini müqayisəli təhlil etmək;
- Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış münaqişəyə ayrı-ayrı beynəlxalq təşkilatların yanaşmasının müqayisəli təhlilini aparmaq;
- 44 günlük müharibəyə qədər və ondan sonra beynəlxalq təşkilatların fəaliyyətinin səviyyəvi xüsusiyyətlərini, oxşar və fərqli cəhətlərini müəyyən etmək;
- münaqişələrin nizamlanmasında beynəlxalq təşkilatların iştirakının qanunverici və hüquqi mexanizmlərini şərh etmək, təklif və tövsiyələr vermək.

**Tədqiqat metodları.** Tədqiqatın nəzəri-metodoloji əsasını sistemli, struktur və funksional analiz üsulları təşkil edir. Bununla paralel olaraq siyasətşünaslıq (politologiya) elmində ümumi qəbul olunmuş metodlardan da istifadə edilmişdir. Problemin əhatə etdiyi dövr bir çox sənədlərlə zəngin olduğundan dissertasiya işinin yazılması prosesində müqayisəli siyasi təhlillərə geniş yer verilmiş, bu metodların xronoloji və problem-xronoloji üsullarından daha çox istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardır:

- Qloballaşma prosesi və onunla əlaqəli meyillər bütün beynəlxalq münasibətlər sisteminə, eləcə də münaqişələrin xarakterinə və onların tənzimlənməsi xüsusiyyətlərinə birbaşa təsir göstərir;
- Siyasi münaqişə müəyyən şərtlərin olduğu şəraitdə cəmiyyətdə siyasi sabitliyi pozan, ona dağıdıcı təsir göstərən və demokratik əsasları üçün təhlükə törədə bilən bir hadisəyə çevrilə bilər.
- Müasir siyasi münaqişələrdə beynəlxalq təşkilatların fəaliyyətləri heç də birmənalı xarakter daşımır, çünki münaqişəyə cəlb olunan beynəlxalq iştirakçılardan heç də hər biri onun həllinə çalışmırlar, daha çox öz maraqlarını güdürlər;

Müasir dünyada BMT-nin və bir çox digər təşkilatların mövcud mexanizmləri ilə nəinki qlobal, bəzi hallarda hətta lokal xarakterli

münaqişələri aradan qaldırmaq mümkün deyildir. Siyasi münaqişələrin tənzimlənməsinə yönəldilmiş beynəlxalq təşkilatların fəaliyyəti, əslində qismən səmərəlidir, əsasən kömək məqsədi daşıyır. Bu baxımdan BMT-də islahatlara, sülhməramlılıq ideyasının praktikada səmərəli həyata keçirilməsinə hər zamankından daha çox tələbat vardır.

- Çoxqütblülük beynəlxalq aktorlar arasında müxtəlif iqtisadi, siyasi və digər əlaqələrin keyfiyyətcə yeni bir sisteminin formalaşmasına, differensiasiya olunmuş qüvvələr dünyasının yaranmasına gətirib çıxara bilər. Bu isə münaqişələrin tənzimlənməsində qlobal təşkilatlarla müqayisədə regional təşkilatların və güc mərkəzi olan dövlətlərin rolunu artıra bilər.
- Münaqişələrin nizamlanmasında homogen vahidlərlə (milli dövlətlərin sistemi) müqayisədə heterogen vahidlərin (sosial hərəkatlar, müəyyən maraqlara söykənən qruplar, bəzi beynəlxalq təşkilatlar, bəzi hərbi qruplaşmalar və s.) rolunu ön plana çıxarmaq cəhdlərinə qarşı ciddi müqavimət mövcuddur.
- Müasir mərhələdə münaqişələrin tənzimlənməsində və güc vasitəsilə sülhün əldə olunmasında homogen vahidlərin, neqativ sülhdən pozitiv sülhə keçid prosesində isə beynəlxalq təşkilatların və hetorgen vahidlərin iştirakçılığı səmərəli nəticələr verir.
- Ermənistanın Azərbaycana hərbi təcavüzünün nəticələrinin aradan qaldırılmasından sonra regionda davamlı sülhün əldə olunması üçün Avropa İttifaqının rolunun ön plana çıxması təşkilatın mexanizmlərinin səmərəliliyindən daha çox geosiyasi və geoiqtisadi maraqlarla bağlıdır.

**Tədqiqatın elmi yeniliyi** qarşıya qoyulan tədqiqat məqsədləri və yerinə yetirilməsi nəzərdə tutulan vəzifələrlə müəyyən olunur. Təqdim edilən dissertasiya işində “münaqişələrin nizamlanması” və “beynəlxalq təşkilatlar” anlayışları yanaşı işlədilir. Tədqiqat işində nəinki müasir münaqişələrin nizamlanmasında beynəlxalq təşkilatların fəaliyyətləri araşdırılır, həm də qloballaşma dövründə beynəlxalq münasibətlər sistemində bu qurumların roluna təsir edən amillər müəyyənləşdirilir. Bununla əlaqədar tədqiqat işində aşağıdakı məsələlər görülmüşdür:

– Beynəlxalq təşkilatların fəaliyyətinin birmənalı xarakter

daşımamasının münaqişələrin həlli prosesinə göstərdiyi mənfi təsirlər müəyyən edilmişdir;

– Güc vasitəsilə sülhün əldə olunmasında homogen vahidlərin, neqativ sülhdən pozitiv sülhə keçid prosesində isə beynəlxalq təşkilatların və hetorgen vahidlərin iştirakçılığının səmərəli nəticələr verdiyi sübuta yetirilmişdir;

- İlk dəfə olaraq virtual-reallıqda mövcud olan qeyri-dövlət aktorları ilə dövlətlər arasında meydana çıxa biləcək münaqişələr anlayışı elmi dövriyyəyə gətirilmiş və bu münaqişələrin tənzimlənməsi ilə bağlı beynəlxalq təşkilatların mexanizmlərinin yoxluğu, mövcud mexanizmlərin isə səmərəsizliyi problemi tədqiq edilmişdir.

**Tədqiqatın elmi-nəzəri və praktiki əhəmiyyəti** qarşıya qoyulan tədqiqat məqsədləri, vəzifələri, həmçinin işin elmi yeniliyi ilə əlaqədardır. Dissertasiya işindəki şərhlər, müqayisəli və tənqidi təhlillər, tədqiqatlar nəticəsində gəlinən ümumiləşdirilmiş nəticələr siyasətşünaslar, konfliktoloqlar, beynəlxalq münasibətlər sahəsində araşdırmalar aparan tarixçilər, beynəlxalq təşkilatların hüququ problemləri ilə məşğul olan hüquqşünaslar, filosoflar, sosioloqlar, ictimai və humanitar elm sahələri üzrə mühazirəçilər üçün faydalı ola bilər.

Dissertasiya işinin materiallarından, başlıca müddəalarından və nəticələrindən politologiya, dövlət idarəçiliyi, beynəlxalq münasibətlər, konfliktologiya, tarix ixtisasları üzrə elmi-tədqiqat işlərində, fənlərin tədrisində, metodoloji seminarlarda istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin məzmunu, əsas müddəaları, əldə olunan nəticələri müəllifin ölkə daxilində və xaricində elmi nəşrlərdə çap edilən məqalələrində, iştirak və çıxış etdiyi respublika və beynəlxalq səviyyəli elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Tədqiqat işi giriş,

paraqraflara ayrılmış üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından və ixtisarların siyahısından ibarətdir. Tədqiqat işinin həcmi ümumilikdə 277331 işarədir. Giriş 23728, birinci fəsil 77018, ikinci fəsil 99811, üçüncü fəsil 64384, Nəticə hissəsi 12391 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **“Münaqişələrin xüsusiyyətləri və nizamlanması yolları”** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir. İlk paraqraf **“Müasir münaqişələrin xüsusiyyətləri”** adlanır. Tədqiqatlar göstərir ki, siyasi münaqişənin mənbəyini və əsasını obyektiv olaraq hər bir cəmiyyətə xas olan sosial-iqtisadi ziddiyyətlər təşkil edir. Müasir mərhələdə qloballaşma prosesi bir sıra yeni münaqişələrin yaranmasına təkan verir. Qloballaşma prosesinin nəticəsi olaraq bir sıra xüsusi təmayüllər və hallar meydana çıxmışdır. Onları da aşağıdakı kimi qruplaşdırmaq olar:

- daxili və xarici siyasət arasında hüdudların aradan qalxması;
- beynəlxalq münasibətlərin və daxili siyasi proseslərin demokratikləşməsi;
- dünyada ən yeni kütləvi kommunikasiya sistemlərinin inkişafı;
- müasir siyasi münasibətlərdə bilavasitə iştirakçı sayının artması;
- beynəlxalq terrorizmin qlobal səviyyədə yayılması.

Qarşılıqlı asılılığın güclənməsi və dünyada mövcud olan yeni problemlərin ayrı-ayrı dövlətlər çərçivəsində həll edilməsinin mümkün olmamasının dərki ilə əlaqədar olaraq daxili və xarici siyasət arasındakı hüdudların aradan qalxması, siyasətin beynəlmiləlləşməsi açıq-aşkar müşahidə edilən prosesdir.[36]

Münaqişəyə tətbiq edilməsi baxımından bu, o anlama gəlir ki, müasir şəraitdə daxili və beynəlxalq münaqişələr arasındakı sərhədlər

[36] Цыганков, П.А. Глобальные политические перемены и язык теории // Глобальные социальные и политические перемены в мире / отв. ред. проф. А.Ю. Мельвиль. - Москва, -1997. -с. 35.

xeyli dərəcədə silinib getməkdədir. Bunun səbəbi müasir dünyadakı münaqişələrin bir çox hallarda daxili münaqişə kimi yaransa da, sonradan genişlənərək beynəlxalq xarakter alması, beynəlmiləlləşməsidir.[37]

Fəslin **"Münaqişələrin nizamlanması problemləri"** adlanan ikinci paraqrafında qeyd olunur ki, yeni yaranmış dünya nizamı, böyük ehtimalla homogen vahidlərin (milli dövlətlərin müasir sistemi şəklində) sistemi kimi deyil, heterogen vahidlərin (məsələn, bəzi sosial hərəkatlar, müəyyən maraqlara söykənən bəzi qruplar, beynəlxalq təşkilatlar, bəzi hərbi qruplaşmalar və s.) bir-biriləri arasındakı münasibətlərə əsaslanmış olan sistem olacaqdır.

Dünya nizamının yeni vəziyyətinin belə qeyri-müəyyənliyi və fəaliyyət göstərən dövlətlərin həddən artıq fərqli olması müasir beynəlxalq münasibətləri tədqiq edən tədqiqatçılarda mövcud vəziyyətin daha yaxşı və dolğun izahını verməyə həvəsləndirir, onları müxtəlif tipli müəllif konsepsiyaları irəli sürməyə sövq edir.

Münaqişələrin xarakterlərində baş verən qanunauyğun dəyişikliklər, münaqişələrdə müxtəlif qeyri-dövlət aktorlarının fəal iştirak etməsi hazırda onların ənənəvi siyasi-diplomatik vasitələrlə tənzimlənməsini çətinləşdirir. Buna səbəb kimi bir çox hallarda iştirakçı tərəfin liderinin legitimliyi ilə bağlı problemlərin həll edilməz vəziyyət alması, yəni belə bir liderlə masa arxasında oturaraq danışıqlar aparmağın hüquqi baxımdan mümkünsüzlüyü, eləcə də vəziyyətə real olaraq tam nəzarət edən liderin müəyyənləşdirilməsi ilə əlaqədar ortaya çıxan problemləri göstərmək olar. Bundan əlavə, heç də hər zaman tərəflər arasında əldə edilən razılaşmaların yerinə yetiriləcəyinə zəmanət verilmir. Tərəflər arasında razılaşmaların əldə edilməsi münaqişə ocağının ortadan qaldırılması üçün heç də kifayət dərəcədə zəmanətin olması demək deyildir. Bu da öz növbəsində baş vermiş münaqişənin hərbi fazasının başa çatmasından sonra əldə edilən sülhün gələcək dövr üçün bünövrəsini təmin etmək məqsədilə sosial-iqtisadi, mədəni və humanitar sahələrdəki köklü problemlərin həllinə xüsusi diqqətin ayrılması zərurətini yarada bilər. Belə tiplərə aid olan problemlərin tənzimlənməsində arzu olunan nəticələrin əldə

[37] Степанова, Е. Интернационализация локально-региональных конфликтов // Международная жизнь. -2000, -№11. -с. 83-94

edilməsi üçün beynəlxalq münasibətlər sisteminin müasir vəziyyətinə uyğun gələn münaqişələrin yeni tənzimləmə vasitələrinin tapılması üçün fəal axtarışlar aparılır. Bu yeni tənzimləmə vasitələri sülhün Vestfal modeli üçün xarakterik olan dövlətlərarası qarşılıqlı fəaliyyətlərin ənənəvi formalarını tamamlamış olardı. Bununla əlaqədar olaraq, beynəlxalq təşkilatların münaqişələrin tənzimlənməsində fəal iştirakı, yeni mexanizmlərin müəyyənləşdirilməsi və tətbiqi ən aktual məsələlərdən birinə çevrilməkdədir.

Siyasi münaqişənin mahiyyəti, onun təbiəti, həmçinin inkişaf dinamikası və ona təsir göstərən amillər bu siyasət fenomeninin əsas kateqoriyalarıdır. Siyasi münaqişələrin ictimai elmlərdən yalnız birinin metodları ilə öyrənilməsi mümkün deyildir. Yalnız bu elmlərin qovuşduğu nöqtədə münaqişə anlayışının universal izahı və açıqlaması verilə bilər.

Bütün bu modelləri tədqiq edərək belə nəticəyə gəlmək olar ki, münaqişə bir növ "normadır". Bu mənada ABŞ politoloqu R.Dal ilə razılaşmamaq olmaz. O, haqlı olaraq qeyd edir ki, siyasət həyatı və siyasi təcrübə münaqişəni siyasətin xarakteristikalarını inkar etmək kimi deyil, bir norma kimi qəbul etməyə meyllidir.[38] İctimai həyatın mövcud olduğu hər bir yerdə münaqişə vardır. Ona görə də münaqişə hadisəsinə birmənalı olaraq mənfi hal kimi münasibət bəsləmək doğru olmaz. Bəşəriyyətin inkişafı tarixində məhz münaqişələr daha bəsit ictimai-siyasi formasiyaların dağılmasına yol açmışdır və beləliklə, insanlar ibtidai icmadan başlamış müasir dövlətə qədər uzun bir yol qət etmişlər.

Siyasi münaqişənin yaranması və inkişaf etməsi bir sıra amillər qrupunun təsiri altında baş verir. Bu amillər münaqişə vəziyyətinin miqyasını, iştirakçıların sayını, münaqişənin inkişaf sürətini müəyyən edir. Müasir münaqişələr bir neçə amilin və ya bütün amillərin birgə məcmusunun təsiri altında baş verə bilər. Bu da onların tənzimlənməsinin daha da uzanmasına və ağrılı olmasına gətirib çıxarar.

Beynəlxalq münasibətlərin ikiqütblü sisteminin aradan qalxması

---

[38] Даль, Р. Полиархия, плюрализм и пространство // Вопросы философии. - 1994. -№2. –с. 38.

müharibənin astanasında olan sülhün tarazlaşdırma əsasında qorunması dövrünü təkcə bitirmədi, hələ eyni zamanda sabitsizliyi daha da artırdı. Müasir mərhələdə sülhə nail olmanın mümkünlüyü bir qədər də azalmış oldu, çünki artıq qüdrətli ikiqütblü qarşıdurma mövcud deyildir. Dünya bir növ əvvəlki kimi gözlənilməzlik halına geri dönmüşdür. Bu da lokal-regional münaqişələrdə özünü göstərir. Əvvəllər ikibloklu qarşıdurma ilə qarşısı alınan bu münaqişələr hazırda tez bir zamanda şiddətlənə bilən potensial imkanlara malik olduğuna görə böyük təhlükə mənbəyidirlər.

İkiqütblülüyün ortadan qalxması beynəlxalq münasibətlərin yeni sisteminin formalaşmasına ehtiyacın olduğunu üzə çıxartdı. Hazırda Avropanın və dünyanın elmi dairələrində yeni sistemin necə olacağı haqqında gərgin mübahisələr gedir. Bu yeni sistem dünyanın müasir inkişaf mərhələsinin xüsusiyyətlərini və ilk növbədə, yeni beynəlxalq aktorların meydana çıxmasını nəzərə almalıdır.

Ənənəvi dövlətlərarası münasibətlərlə ziddiyyət təşkil edən bir hadisə kimi özünü göstərən, xüsusilə də XX əsrin 90-cı illərinin əvvəllərində aktual olan qloballaşma proseslərinin, eləcə də bir sıra qlobal meyillərin ikiqütblülüyün ortadan qalxması ilə eyni vaxta düşməsi beynəlxalq münasibətlərin keyfiyyətcə yeni bir vəziyyətini formalaşdırdı. Siyasətin beynəlmiləlləşməsi, daxili və beynəlxalq münasibətlərin demokratikləşməsi, informasiya və kommunikasiya sahəsindəki canlanma, beynəlxalq oyunçular dairəsinin genişlənməsi, terrorçuluğun qlobal miqyasda yayılmağa başlaması bu prosesə ciddə şəkildə təsir göstərdi. Yeni vəziyyət də öz növbəsində bir sıra problemlərin, yeni tipli münaqişələrin yaranmasına gətirib çıxardı. Həmin problemlərin həll edilməsi üçün isə yeni yanaşmalar tələb olunur.

Dissertasiya işinin ikinci fəsli **“Münaqişələrin tənzimlənməsi prosesində beynəlxalq təşkilatların iştirakçılığının səciyyəvi xüsusiyyətləri”** adlanır. Fəslin **“Münaqişələrin nizamlanmasında beynəlxalq təşkilatların iştirakının tarixi, hüquqi və siyasi əsasları”** adlı ilk paraqrafında Millətlər Liqası, BMT və onun müxtəlif strukturları, ATƏT, Avropa İttifaqı, Amerika Dövlətləri Təşkilatı, Afrika İttifaqı, Ərəb Dövlətləri Liqası, MDB, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (GUAM), NATO, KTMT kimi təşkilatların

münaqişələrin tənzimlənmə prosesində iştirakçılıq potensialına diqqət yetirilmişdir.

Fəslin “**Cənubi Qafqaz və Moldova ərazisindəki münaqişələrin nizamlanmasında beynəlxalq təşkilatlar və sülhməramlı fəaliyyətlər”** adlı ikinci paraqrafında SSRİ-nin süqutundan sonra dünyanın siyasi xəritəsində meydana çıxmış yeni müstəqil dövlətlərdə münaqişələrin nizamlanmasında beynəlxalq təşkilatların iştirakçılığı və sülhməramlı fəaliyyətlər təhlil edilmişdir.

Münaqişələrin tənzimlənməsi istiqamətində fəaliyyət göstərən subyektlər və ilk növbədə Avropa İttifaq, BMT, ATƏT, Avropa Şurası və ayrı-ayrı ölkələr təkcə münaqişə edən tərəflərin deyil, həm də onlara havadarlıq edən gücün mənfi təsirinin azaldılmasına, birtərəfli deyil, bir neçə mənbədən qaynaqlanan hərtərəfli həll yollarının tapılmasına şərait yaratmaq üçün maksimum səylər göstərməlidirlər. Belə olan halda münaqişənin həll olunmasında həqiqətən də maraqlı olan regional və beynəlxalq təşkilatlar münaqişə edən tərəflərin və onlara havadarlıq edən gücün həll yolunu tapmasına ümid edərək xəyali müdafiə mövqeyində, geri çəkilmə əhvali-ruhiyyəsi arxasında gizlənməli deyillər. Əksinə, bunun əvəzinə təmaslarını fəallaşdırmalı, iqtisadi yardımı müəyyən etməli və siyasi təzyiq göstərməlidirlər.

İndiki şəraitdə beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına böyük əngəl olan uzunmüddətli münaqişələrin həllində bir sıra amillər mövcuddur və onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Nüfuzun və təsir gücünün artmasına təminatın olmaması. Uzanmış münaqişələrin həll edilməsində dövlətlərin və təşkilatların motivasiyasını azaldan səbəblərdən biri bununla elə də rahat nüfuzun qazanılmasının mümkün olmamasıdır. Münaqişə tərəfləri arasında razılaşmaların əldə edilməsində önəmli rol oynaya bilən kənar subyektlər üçün uzanmış münaqişələrin nizamlanmasında iştirak elə də böyük üstünlüklər qazandırmır, əksinə bu cür nizamlamaya cəhdin uğursuz olması subyektlərə, o cümlədən beynəlxalq təşkilatların nüfuzuna mənfi təsir göstərə bilir.

2. Havadarlıq edən güclə münasibət və onun təsiri. Qara dəniz sahili boyu və Cənubi Qafqaz regionlarındakı separatçı qurumlar SSRİ-nin dağılmasından sonra miras qalan geosiyasi qaydalara uyğun olan cəbhə xətti rolunu oynayırlar. Vaxtilə Moskvanın bu

regionlardakı hegemonluğuna hazırki şəraitdə beynəlxalq və regional subyektlər (ABŞ, NATO, Aİ) və regional liderlər (Türkiyə və İran) meydan oxuyurlar. 1989-cu ildən sonra Şərqi Avropada və keçmiş Sovet İttifaqı ərazisində Rusiya ilə Qərb arasında baş vermiş maraqların toqquşması və təsirlərin nümayişində özünü həm ziddiyətli, barışmaz təzahürlərdə (Rusiyanın "yaxın xaricdə" öz strateji maraqlarını təsdiq etməsi və onun Qərb tərəfini müdaxilə etməkdə günahlandırması), həm də qarşılıqlı olaraq maraqların (terrorizm və qaçaqmalçılıqla mübarizədə əməkdaşlıq) təmin edilməsi planında açıq-aşkar göstərməkdədir.[39]

3. Yeni reallıqlar, köhnə problemlər. Təhlillərdən aydın olur ki, separatçı qurumlarda hökumət, konstitutsiya, seçkilər, silahlı qüvvələr və s. kimi "dövlətçilik" görüntüsü yaradan atributların olması yeni reallıqların yaranmasına yol açır. Nəticədə bu reallıqlar münaqişələrin həll edilməsi üçün ciddi maneələrə çevrilir. 2008-ci ilin avqustunda Gürcüstanın Tsxinvali regionunda baş verən beş günlük müharibə yeni bir şəraitin yaranmasına səbəb olsa da, problemin həllində ciddi bir dəyişiklik yaratmadı. Döyüş əməliyyatlarından sonra dondurulmuş müharibə təkrarən donduruldu. Yeni reallıq ondan ibarət oldu ki, Gürcüstan əvvəlkindən daha az ərazini nəzarəti altında saxlayır, Rusiya Federasiyası iki separatçı qurumu rəsmən tanıyır, açıq şəkildə həmin rejimləri dəstəkləyir və onların ərazilərində öz varlığını gücləndirir.

Həlli uzanmış olan münaqişələr müxtəlif daha mürəkkəb problemlərin yaranmasına gətirib çıxarır. Münaqişənin siyasi nəticəsi separatçı rejimin qanuna zidd olaraq qanuniləşdirilməsi cəhdlərindən ibarətdir. Bu da dövlətlərin ərazi bütövlüyü və suverenliyi ilə bağlı mövcud olan beynəlxalq hüququn norma və prinsiplərinə ziddir. Münaqişələrin həllinin bu cür uzanması qanunsuz rejimlərin birliyi üçün vaxt qazanmağa xidmət edir. Uzanmış olan münaqişənin iqtisadi nəticəsi iqtisadi tənəzzül və təhlükəsizliyin təmin edilməsi üçün ayrılan ehtiyatların yenidən bölüşdürülməsi ilə səciyyələnir.

4. Qeyri-ardıcıllıq və qətiyyətsizlik. Kənar subyektlərin və separatçılığın baş verdiyi ölkənin separatçılarla və havadar ölkə ilə

[39] Charles, A., Adler. E, Coicaud J., Khong, Y.F. Power in Transition // The Peaceful Change of International Order. -UN University Press, -2001, -pp. 138-158.

genişləndirilmiş dialoqda iştirak edib-etməmələri ilə bağlı məsələlərdə qətiyyətsizlikləri separatçı rejimin de-fakto tanınması barədə narahatlıqlarla əlaqədardır. Bu yanaşmaya haqq qazandırmaq olar. Məhz bu məqam separatçı rejimlərə qarşı ölkələrin təcridetmə strategiyasına maksimum şəkildə üstünlük vermələrini zərurətə çevirir. Separatçı hərəkətlər nəticəsində yaradılmış qondarma qurumla aparılan hər hansı bir danışıq onun de-fakto tanınması deməkdir.

Beləliklə, SSRİ-nin dağılmasından sonra yaranmış yeni müstəqil dövlətlərin ərazilərində meydana çıxmış münaqişələri beynəlxalq təşkilatların ənənəvi modellər üzərindən yanaşması ilə həlli mümkün olmamışdır. Müxtəlif regional xarakterli beynəlxalq təşkilatlar tərəfindən münaqişə zonalarına sülhməramlı qüvvələr adı altında yeridilən hərbi qüvvələr də əslində regionda münaqişələrin mövcud olmasında maraqlı olan gücün – Rusiyaya məxsus və ya onun təsiri altında olan hərbi qüvvələr olmuşdur. Rusiya Federasiyası bu geosiyasi məkanda özünün iştirakı olmadan münaqişələrin istənilən formada nizamlanmasına əlində olan bütün vasitələrdən istifadə edərək mane olmuşdur. Rusiya münaqişələrin həll olunmamasında və davam etməsində maraqlı olmuşdur. Çünki əgər münaqişə edən tərəflər anlaşarlarsa, yaxşı münasibətlər qurarlarsa, o zaman sülhməramlı qüvvəyə də ehtiyac qalmaz. Deməli, Rusiyanın münaqişə bölgəsində hərbi mövcudluğuna son qoyular və təsir dairəsi zəifləyər.

Şərqi Avropa və Balkan yarmadasındakı ölkələrdə baş verən münaqişələrlə müqayisədə SSRİ-nin süqutundan sonra yaranmış yeni geosiyasi məkanda Aİ-nin münaqişələrin nizamlanmasında iştirak imkanları və istəkləri xeyli zəif olmuşdur. Təhlillər göstərir ki, Avropa İttifaqının hərbi-siyasi təsir imkanları məhdud olsa da, münaqişələrin nizamlanması üçün sahib olduğu iqtisadi ehtiyatlardan istifadə etmək imkanına malikdir. Bu baxımdan Avropa İttifaqının ərazisində münaqişə olan dövlətləri (Ukrayna, Moldova, Gürcüstan və s.) dəstəkləyərək onların iqtisadi cazibə mərkəzinə çevrilməsinə yardım etməsi münaqişəli zonaların yenidən inteqrasiya etmək meyillərini yarada və gücləndirə bilər. Bu isə Aİ-nin Şərq tərəfdaşlığı siyasəti çərçivəsində əməkdaşlıq etdiyi dövlərlərdə münaqişələrin həll edilməsi üçün yumşaq modellərin yaranmasına imkan verər. Bunun üçün Avropa İttifaqı siyasi vasitəçilik, iqtisadi yardım, insan

haqlarının qorunması və humanitar yardım sahəsindəki fəaliyyətlərinə əlavə olaraq sülhməramlı missiyaların və ya genişləndirilmiş mülki müşahidəçi missiyalarının ayrılmaz hissəsi olmaq üçün cəhdlərini davam etdirə, dondurulmuş münaqişələrin tənzimlənməsi üzrə daha təsirli təminatçılıq rolunu öz üzərinə götürə bilər. Aİ-nin bu məsələlərdə təsirini tədricən artırmasını gözləmək olar.

Ərazisində uzunmüddətli münaqişə ocaqları olan dövlətlərə münasibətdə iki məsələ mütləq nəzərə alınmalıdır. Birincisi, separatçılığın baş verdiyi ölkə həyat səviyyəsinin yüksəkliyi, insan hüquq və azadlıqlarına yanaşma baxımından cəlbedici olmalıdır. Bu separatçılıq həvəslərini azalda bilər. Metropoliya dövlət əsas diqqətini iqtisadi inkişafa və demokratik institutların və nizamın möhkəmləndirilməsinə yönəltməlidir. Bu da öz növbəsində separatçılar tərəfindən metropoliyanı nüfuzdan, etibardan salmaq üçün istifadə olunan təbliğatı məhdudlaşdırar. Belə olan halda separatçı qurumlardakı vətəndaşlar metropoliya ilə birləşmək istiqamətində separatçı liderlərə qarşı ciddi təzyiqlər etməyə başlayar. Bu da son nəticədə uzunmüddətli həll yolunun əldə edilməsinə gətirib çıxara bilər. Məsələnin kökündə duran dilemma separatçı rejimin rəsmən dəstəklənməməsi və de-fakto tanınmamasına istiqamətlənmiş prosesin bütün cəhətlərinə təsir göstərməkdədir. Bununla paralel olaraq separatçıların metropoliyaya cəlb edilməsi üçün imkanlar yaradır. Belə ki, onlarla ticarət dövriyyəsinə, sərbəst hərəkət etmə hüququna və mülkiyyət hüququna müəyyən səviyyədə imkanlar verir və nəticədə bütün bunlar qarşılıqlı maraqlar şəbəkəsinin yaranmasına yol açır. Alternativlik ondan ibarətdir ki, separatçılar getdikcə daha çox havadar ölkəyə güvənəcəklər və metropoliya ilə münasibətdə daha çox uzaqlaşmış və özgələşmiş olacaqlar. Tərəqqi yolunda olan və demokratik metropoliya-dövlət separatçı qurumlarda yaşayan əhalinin belə bir alternativin olması səbəbilə bağlı narahatlıqlarını azalda bilər.

İkincisi, beynəlxalq ictimaiyyətin metropoliyalara verdiyi dəstək separatçı rejimlərin rəsmən tanınmasından imtina ilə məhdudlaşmamalıdır. Onun dəstəyi həm də demokratikləşmə prosesində və metropoliyanın institusional inkişafında ifadə olunmalıdır ki, regionda cəlbetmə mərkəzinin yaranması üçün üçün şərait yaransın və metropoliya separatçılar üçün cəlbedici ölkəyə

çevrilsin. Bununla yanaşı, Aİ kimi beynəlxalq qurumlar həqiqi plüralizmi təşviq etmək üçün metropoliyalarla birlikdə çalışmalıdırlar. Həmçinin beynəlxalq ictimaiyyət və qurumlar metropoliyaların separatçı qurumlara müdaxiləsinin marginallaşdırılması yolu ilə daim onlara dəstək verməlidirlər. Son nəticədə hakimiyyətin müəyyən dərəcədə bölgüsü, bərabər imkanlar və əlçatanlıq ilə xarakterizə edilən bir formul tətbiq edilməlidir. Bu formul separatçıların təqib olma narahatlığını azalda bilər və onların metropoliyanın tərkibində hansısa bir səviyyədə iştirakına təminat verə bilər.

Dissertasiya işinin üçüncü fəsli **"Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların fəaliyyəti"** adlanır. Fəslin **"Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında böyük dövlətlərin və beynəlxalq təşkilatların iştirakının tarixi-siyasi aspektlər**" adlı iilk paraqrafında Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında böyük dövlətlərin və beynəlxalq təşkilatların iştirakının tarixi-siyasi aspektləri, **"2020-ci ildə baş vermiş 44 günlük müharibədən sonra beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsi prosesində iştirakı"** adlı ikinci paraqrafda isə 2020-ci il müharibəsindən sonrakı yeni şərait və beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsi prosesində iştirakı tədqiq edilmişdir.

Münaqişənin aktiv hərbi fazaya keçdiyi və Ermənistanın Azərbaycan Respublikasının ərazilərinin işğalına başladığı illərdən ötən müddət ərzində nizamlanma prosesində BMT və ATƏT kimi təşkilatlar aktiv rol oynayamağa çalışsalar da, dünyadakı dəyişkən geosiyasi proseslər, bu beynəlxalq təşkilatların özü ilə bağlı meydana çıxan bir sıra məsələlər, ATƏT-in Minsk qrupuna həmsədrlik edən dövlətlərin təşkilatın fəaliyyət prinsiplərinə uyğun deyil, öz maraqları çərçivəsində davranması münaqişənin real həllinə gətirib çıxarmamışdır. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi.[40] Doğrudur, bu təşkilatlar Azərbaycan Respublikasının işğal edilmiş bir sıra əraziləri ilə bağlı bəyanatlar vermiş, qərar və qətnamələr qəbul etmişlər. Lakin BMT qətnamələri

[40]Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [117 cild] / İ.H.Əliyev. –Bakı: Azərnəşr, –2021. –c. 108. -s. 284-285

başda olmaqla qəbul edilən sənədlərin icra edilməsi üçün heç bir real addım atılmamışdır.

Aİ, AŞ, NATO və digər təşkilatlar isə prosesə daha məsafəli davranmağa çalışmış, münaqişənin nizamlanma mexanizminin ATƏT-in Minsk qrupunun səlahiyyətində olan məsələ olduğunu bəyan etməklə prosesdə hər hansı məsuliyyəti üzərlərinə götürməkdən yayınmışlar. İƏT, Türk Dövlətlərinin Əməkdaşlıq Şurası, GUAM kimi təşkilatlar Azərbaycan Respublikasının beynəlxalq hüquqa əsaslanan mövqeyini birmənalı şəkildə dəstəkləyən bir sıra sənədlər qəbul etsələr də, bu təşkilatların cərəyan edən geosiyasi proseslərə real təsir imkanları olmamışdır. Lakin bu təşkilatların mövqeyi Azərbaycanın haqlı mənafelərinin müdafiəsində, Ermənistanın təcavüzkar dövlət kimi ifşasında, məsələyə ikili standartlar çərçivəsində yanaşan bir çox digər təşkilatların da fakt qarşısında qalaraq həqiqəti etiraf edən sənədlər qəbul etməsinə və beynəlxalq ictimai rəyə təsir etməsinə gətirib çıxarmışdır.

2020-ci ilin sentyabr-noyabr aylarında baş verən müharibədə Azərbaycanın qələbə qazanması və ərazilərin işğaldan azad edilməsindən sonra region geosiyasətində iştirak edən beynəlxalq təşkilatların rolunda bir sıra dəyişikliklər baş vermişdir. ATƏT-in, o cümlədən onun münaqişənin nizamlanması prosesi üçün yaradılmış Minsk qrupunun rolu tamamilə zəifləmiş, bu qurumun proseslərə təsir imkanını saxlamaq üçün guya münaqişənin hələ davam etdiyin dair açıqlamaları müharibədə qalib gəlmiş Azərbaycan Respublikası tərəfindən birmənalı şəkildə rədd edilmişdir. Post-münaqişə mərhələsində münasibətlərin tənzimlənməsi prosesində Avropa İttifaqının rolu yüksəlməyə başlamış, iki ölkə arasındakı danışıqlara Rusiya Federasiyası, beynəlxalq təşkilat olaraq isə Avropa İttifaqı ev sahibliyi etmişdir.

Dissertasiya işinin **Nəticə** hissəsində aparılan tədqiqatların yekun müddəaları ifadə olunmuş, ünaqişələrin və münaqişədən sonrakı mərhələdə tərəflər arasında münasibətlərin nizamlanmasında beynəlxalq təşkilatların rolunun artırılmasına dair aşağıdakı elmi əsaslandırılmış təkliflər irəli sürülmüşdür:

1. Qloballaşma prosesi və onunla əlaqəli qlobal meyillər bütün beynəlxalq münasibətlər sisteminə, eləcə də müasir münaqişələrin

xarakterinə və onların həlli xüsusiyyətlərinə birbaşa təsir göstərir. Bu baxımdan beynəlxalq təşkilatların münaqişələrin tənzimlənməsi prosesinə daha geniş baxış bucağından yanaşan, daha işlək mexanizmlər nəzərdə tutan hüquqi sənədlər qəbul etməsinə, onların reallaşdırılmasına ehtiyac vardır.

2. Müasir dünyada BMT və bir çox digər təşkilatların mövcud mexanizmləri ilə nəinki qlobal, bəzi hallarda hətta lokal xarakterli münaqişələri aradan qaldırmaq mümkün deyildir. Beynəlxalq təşkilatların siyasi münaqişələrin həllinə yönəldilmiş beynəlxalq təşkilatların fəaliyyəti, faktiki olaraq qismən səmərəlidir, kömək məqsədi daşıyır. Bu baxımdan BMT-də islahatlar zəruridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə bu barədə fikirlərini söyləmişdir.

3. Çoxqütblülük beynəlxalq aktorlar arasında müxtəlif iqtisadi, siyasi və digər əlaqələrin keyfiyyətcə yeni bir sisteminin formalaşmasına, şaxələndirilmiş qüvvələr dünyasının yaranmasına gətirib çıxara bilər. Bu isə öz növbəsində münaqişələrin tənzimlənməsində qlobal təşkilatlarla müqayisədə regional təşkilatların və güc mərkəzi olan dövlətlərin rolunu artıra bilər.

4. Müasir dünyada münaqişələrin tənzimlənməsində, güc vasitəsilə sülhün əldə olunmasında homogen vahidlərin, neqativ sülhdən pozitiv sülhə keçid prosesində isə beynəlxalq təşkilatların və hetorgen vahidlərin iştirakçılığı səmərəli nəticələr verir. Bunu bir çox münaqişələr üçün model kimi qəbul edib, tətbiq etmək mümkündür.

5. Avropa İttifaqı başda olmaqla bir sıra beynəlxalq təşkilatların Avropa məkanında, xüsusən SSRİ-nin süqutundan sonra ərazisində münaqişələr meydana çıxmış dövlətləri (Ukrayna, Moldova, Gürcüstan və s.) dəstəkləyərək onların iqtisadi cazibə mərkəzinə çevrilməsinə yardım etməsi münaqişəli zonaların yenidən inteqrasiya etmək meyillərini yarada və gücləndirə bilər. Bu isə Avropa İttifaqının Şərq Qonşuluğu Siyasəti çərçivəsində əməkdaşlıq etdiyi dövlərlərdə münaqişələrin həll edilməsi üçün yumşaq modellərin yaranmasına imkan verər.

6. Paralel olaraq beynəlxalq təşkilatlar ərazisində uzunmüddətli münaqişə ocaqları olan dövlətlərdə həyat səviyyəsinin yüksəldilməsi, insan hüquq və azadlıqlarına yanaşma baxımından cəlbediciliyin

artmasına nail olmaqla da mərkəzdənqaçma meyillərini, münaqişələrin qızışdırılmasında maraqlı olan iştirakçıların iddialarını azalda bilərlər.

7. Müasir şəraitdə virtual-reallıqda fəaliyyət göstərən qeyri-dövlət aktorları ilə dövlətlər arasında yeni ziddiyyətlər meydana çıxmaqdadır. Gələcəkdə bu cür subyektlər arasında yaranacaq münaqişələrin tənzimlənməsi üçün nə homogen vahidlərin, nə də hetorgen vahidlərin – beynəlxalq təşkilatların demək olar ki, mexanizmləri yoxdur. Bu istiqamətdə mexanizmlərin formalaşdırılması istiqamətində işlər həyata keçirilməlidir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır:**

1. Beynəlxalq sülh proseslərində beynəlxalq təşkilatların fəaliyyətlərinin müqayisəli təhlili // -Bakı: Sosial elmlər. -2021, № 1. –s. 216-224.
2. Qarabağ münaqişəsi və beynəlxalq təşkilatların fəaliyyəti // -Bakı: Sosial elmlər. -2021, № 2. –s. 110-119.
3. Müasir siyasi münaqişələrin xüsusiyyətləri // Gənc tədqiqatçı. -2021, C. VII, № 2. –s. 211-221.
4. Münaqişələrin tənzimlənməsi problemləri //-Bakı: Şərq araşdırmaları. -2021, № 4. –s. 124-131.
5. Qarabağ münaqişəsinin həllində beynəlxalq təşkilatların mövqeyi // "Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda ikinci Qarabağ Vətən müharibəsi: Dövlət, Xalq, Ordu birliyi. Uğurlar və perspektivlər" adlı Beynəlxalq elmi konfrans, -Bakı: Azərbaycan Dillər Universiteti, -29-30 oktyabr 2021. -2022. -s. 116-121.
6. Münaqişələrin tənzimlənməsində beynəlxlaq təşkilatların iştirakının tarixi və hüquqi-siyasi əsasları // "Qarabağın tarixi: siyasi, iqtisadi, mədəni aspektlər" adlı Beynəlxalq elmi konfrans, -Sumqayıt: SDU, -17-18 mart 2022. -2022. –s.87-89.
7. Алишанова, А.А. Особенности современных конфликтов и пути их урегулирования // - Москва: Этносоциум и межнациональная культура. -2022. -№3. –s. 76-85.
8. Münaqişələrin nizamlanması prosesində beynəlxalq təşkilatların rolu: tarixi ənənələr, hüquqi əsaslar, geosiyasi reallıqlar // -Bakı: Qafqazüşnaslıq, -2022. № 1 (03). –s. 97-112.

Dissertasiyanın müdafiəsi "23"may 2024-cü il tarixində saat 11:00 Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı, Lermontov küç. 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "___"__________ _____-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.04.2024
Kağızın formatı: A5
Həcm: 40770
Tiraj: 80